18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür!

41 (1191) 14-20 oktyabr 2021-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

"AZƏRBAYCAN TAMAMİLƏ MÜSTƏQİL DAXİLİ VƏ XARİCİ SİYASƏT YÜRÜDÜR, DAXİLİ İŞLƏRİNƏ BÜTÜN MÜDAXİLƏ CƏHDLƏRİNİ EFFEKTİV ŞƏKİLDƏ NEYTRALLAŞDIRIR"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıda videoformatda çıxış edərkən deyib.

Tədbirin rəsmi açılış hissəsinə sədrlik edən Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyev bildirib:

- Suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, başqalarının daxili işlərinə qarışmama kimi prinsipləri özündə ehtiva edən tarixi Bandunq prinsipləri Qoşulmama Hərəkatının təməlində dayanır. Bu prinsiplər müasir beynəlxalq münasibətlərdə aktual və vacib olaraq qalır. Əgər bütün ölkələr Bandunq prinsiplərinə riayət etsəydilər, onda biz dünyada müharibələr və münaqişələr görməzdik.

Zor tətbiq etməklə dövlətlərin ərazi bütövlüyünün pozulması qətiyyən qəbuledilməzdir. Azərbaycan bütün ölkələrin suverenliyi və ərazi bütövlüyü prinsiplərini tam dəstəkləyir.

Sülhün, təhlükəsizliyin, beynəlxalq hüququn və ədalətin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatı ailəsinə qoşulmaq qərarına gəldi. Qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının Sədri seçildi.

Dünya 2020-ci ilin əvvəlində COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycan Hərəkatda sədrliyinə məsuliyyətlə yanaşmış və pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərmişdir. Azərbaycan pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürüb. Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə Toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və onu təşkil etmişik. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının təmin edilməsi üçün həmin məlumat bazasından istinad mənbəyi kimi istifadə edir.

Bundan əlavə, Zirvə Toplantısındakı təklifimə əsasən, – bu təklif daha sonra 150-dən artıq ölkənin dəstəyini almışdır, - 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş, dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası təşkil olunmuşdur.

Azərbaycan, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım idi.

Cari ilin mart ayında Azərbaycanın təşəbbüsü əsasında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsinə dair qətnamə qəbul edilib. Təəssüflər olsun ki, beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərarları ilə bağlı ikili standartlar və selektiv yanaşmanın tətbiqi dünyada münaqişələrin ədalətli həllinə mənfi təsir göstərir. Azərbaycan da son 30 il ərzində belə selektiv yanaşmaya məruz qalıb.

Beynəlxalq münasibətlərdə tüğyan edən ikili standartlardan istifadə edən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq təqribən 30 il ərzində Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlaya bildi. Həm öz ərazisində, həm də işğal etdiyi Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdi. 1992-ci ilin fevralında Xocalı soyqırımını törədərək, yüzlərlə mülki şəxsi, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirdi.

Lakin hərbi təcavüzə və 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasından imtina etməsinə baxmayaraq, Ermənistana qarşı sanksiyalar tətbiq edilmədi. Ermənistan işğalı möhkəmləndirir, hərbi cinayətlər törədir, qanunsuz məskunlaşdırma və təbii sərvətlərimizin qeyri-qanuni istismarını həyata keçirir, Azərbaycan xalqının mədəni və dini irsini məhv edirdi.

2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi hücum törətdi. Buna cavab olaraq, Azərbaycan Ordusu öz ərazimizdə əks-hücum əməliyyatına başladı və işğal olunmuş torpaqlarımızı azad etdi. 44 günlük Vətən müharibəsi nəticəsində tamamilə məğlub edilmiş Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu.

Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin daim dəstəklənməsini yüksək qiymətləndirdiyimizi vurğulamaq istərdik. Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan Qoşulmama Hərəkatının yeddi ölkəsinin bizə verdiyi dəstək olduqca dəyərlidir. Onlar BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinə istinadın edilmədiyi birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər. Bununla da, həmin ölkələr Qoşulmama Hərəkatının sənədlərindən qaynaqlanan Hərəkatın prinsipial mövqeyinə möhkəm sadiqliyini nümayiş etdirdilər.

Sonda sizi əmin etmək istəyirəm ki, Qoşulmama Hərəkatının Sədri kimi Azərbaycan beynəlxalq münasibətlərdəki qlobal çağırışların həlli istiqamətində Hərəkatın rolunun daha da gücləndirilməsi, habelə ədalətin, beynəlxalq hüququn və Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi istiqamətində səylərini əsirgəməyəcəkdir.

AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN MÜVAFİQ QURUMLARI ARASINDA ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİNƏ TÖHFƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyə Respublikasının Ətraf Mühit və Şəhərsalma naziri Murat Kurumu qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin ölkəmizə səfərinin Azərbaycan və Türkiyənin müvafiq qurumları arasında əlaqələrin genişləndirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

Söhbət zamanı işğal dövründə ermənilərin Azərbaycan torpaqlarında təbiətə böyük ziyan vurması, meşələri kütləvi surətdə qırması, çayları çirkləndirməsi barədə danışılıb.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

İ.ƏLİYEV: "BİZ HADRUTU BEYNƏLXALQ MƏDƏNİYYƏT VƏ TURİZM MƏRKƏZİNƏ ÇEVİRMƏK ƏZMİNDƏYİK"

(əvvəli 3-cü səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib.

Dövlətimizin başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

Prezident İlham Əliyevin tapşırığına əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastruktur layihələrinin icrası davam edir. Bu barədə məlumat verən Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirib ki, belə layihələrdən biri də Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoludur.

Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da yeni "Hadrut" qovşaq yarımstansiyasının təməlini qoyub.

Prezident İlham Əliyevin ötən ilin oktyabrında imzaladığı "İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərmanının icrası məqsədilə bütün inzibati ərazilərdə dağıdılan paylayıcı elektrik şəbəkələrinin qəza vəziyyətindən çıxarılması istiqamətində işlərə başlanılıb. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov bildirib ki, ilk növbədə, Hadrut qəsəbəsini elektrik enerjisi ilə təmin etmək üçün Füzuli rayonundakı 110/35/10 kV-luq "Şükürbəyli" yarımstansiyasından "Hadrut" yarımstansiyasına qədər uzunluğu 27 kilometr olan 35 kV-luq ikidövrəli hava xətti çəkilib. Bununla da Hadrut qəsəbəsində yerləşən strateji obyektlər elektrik enerjisi ilə təchiz edilib.

Şuşa şəhərinin qısa vaxtda elektrik enerjisi ilə təmin olunması üçün 35/10 kV-luq "Daşaltı" yarımstansiyası inşa edilib. Yarımstansiyanı qidalandırmaq üçün "Hadrut" yarımstansiyasından 53,5 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilib. "Hadrut"-"Daşaltı" elektrik veriliş xətti vasitəsilə ilkin mərhələdə Şuşa şəhərinin, Xocavənd rayonunun bəzi kəndlərinin və ətraf ərazilərdəki mühüm strateji obyektlərin, eyni zamanda, bu istiqamətdə aparılan yol infrastrukturu və digər tikinti işlərinin elektrik təchizatı təmin edilib. Prezident İlham Əliyev yeni "Hadrut" qovşaq yarımstansiyasının təməlini qoyub.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib. O, deyib:

- Əziz dostlar, bu gün Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümüdür. Sizi və bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Bu günü sizinlə birlikdə burada - Hadrutda qeyd etmək, hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu gün artıq Hadrutun və ümumiyyətlə Qarabağın yeni dövrü başlayır.

Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyatdır. Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi. Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda, Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı.

Hadrut əməliyyatının əhəmiyyəti ondadır ki, Ermənistan rəhbərliyi və Ermənistan ordusu gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik. Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək doğrudan da çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik.

Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, Hadrut əməliyyatı ilə bağlı Ermənistan mətbuatında yalan informasiyalar kifayət qədər çox idi. Biz artıq Hadrutun ətrafında yerləşən bütün dağları işğalçılardan təmizləyəndən sonra aydın oldu ki, qəsəbənin götürülməsi, sadəcə olaraq, müəyyən zaman tələb edir. Biz az itkilərlə qəsəbəni götürmək əzmində idik və buna da nail olduq. Azərbaycan əsgər və zabitləri bizim dövlət bayrağımızı Hadrutda qaldırıb mənə raport verəndən sonra artıq Ermənistan rəsmi təbliğatı etiraf etdi ki, Hadrut Azərbaycan Ordusunun nəzarətindədir.

Bu, bir daha onu göstərir ki, Ermənistan təbliğatı istər işğal dövründə, istər müharibə dövründə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub. Onların tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər. Bunu hamı bilir. O vaxta qədər burada erməni yaşamırdı. Tarixi saxtalaşdıraraq, bu gün də bugünkü reallıqları saxtalaşdırırlar. Müharibə dövründə biz Ermənistan rəsmi orqanlarından nə qədər yalan eşitdik. Onların Müdafiə Nazirliyindən, - yəqin ki, onun adını gərək dəyişdirib yalan nazirliyi qoysunlar, - o qədər yalan, o qədər cəfəng informasiyalar gəlirdi ki, həm biz, həm də beynəlxalq ekspertlər, sadəcə olaraq, təəccüb edirdilər. Hadrutla bağlı bu yalanın dərəcəsi ən pik həddə çatmışdı. Çünki Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatdı.

Birincisi ona görə ki, onlar hesab edirdilər, Azərbaycan Ordusu Hadrutu heç vaxt azad edə bilməz. İkincisi ona görə ki, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi, rayon mərkəzi idi. Ermənistan rəhbərliyi və Ermənistan ictimaiyyəti gördü ki, bizim üçün bütün torpaqlar bizim torpaqdır - istər Füzuli olsun, istər Cəbrayıl olsun, istər Zəngilan olsun, istər Hadrut olsun, Şuşa olsun, Suqovuşan olsun. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrini işğalçılardan azad etmək Ermənistana göstərdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq. Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq.

Azərbaycanın inzibati-ərazi bölgüsünə görə Hadrut qəsəbəsi Xocavənd rayonunun tərkib hissəsidir və vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan Hadrut və Martuni rayonlarını biz birləşdirdik və Xocavənd rayonu yaradıldı. Onu da bildirməliyəm ki, keçmiş Martuni rayonunun da təqribən 55-60 faizi işğalçılardan azad edilib və Azərbaycan vətəndaşları o bölgələrə də qayıdacaqlar.

Biz Hadrutu bərpa edəcəyik. Hadrutun baş planı, onun ilkin versiyası mənə təqdim edildi. Bu gün isə artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, "Hadrut" yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir.

Biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk. Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda, qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bu gündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik.

Qəsəbənin və Xocavənd rayonunun inkişafı ilə bağlı əsas istiqamət kənd təsərrüfatı olacaq - bitkiçilik, heyvandarlıq, üzümçülük. Burada üzümçülük ənənələri olubdur, üzüm üçün çox münbit şərait var. Kənd təsərrüfatı ilə bərabər, bura çox dəyərli turizm mərkəzi olacaq. Çünki Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası - bunlar burada yerləşir. Ermənilər Azıx mağarasını da erməniləşdirmək istəmişdilər. Bunların cəfəngiyyatının dərəcəsinə baxın, onlar bəyan edirdilər ki, Azıx mağarasında ermənilər yaşayıblar. Adam bilmir gülsün, yoxsa neynəsin. Azıx mağarasını aşkarlayan da azərbaycanlı arxeoloqlar olmuşlar. O arxeoloqlar böyük tədqiqat işləri aparmışdılar. Ermənilər, sadəcə olaraq, təbliğat üçün dünyanın bir neçə ölkəsindən alimlər gətirərək burada şou yaradırdılar. Demək olar ki, mağaraya böyük ziyan vurublar. Keçən dəfə mən burada olanda o mağaranın girişinə qədər qalxdım. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorları da dəvət etmək istəyirəm. Çünki dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır. Ermənilər Kəlbəcərdəki, Laçındakı və digər yerlərdəki meşələrimizi qırıblar. Kəlbəcər, Laçın, Zəngilan rayonlarında 60 min hektara yaxın meşə sahəsi tamamilə məhv edilib, qırıblar, yandırıblar, Cəbrayılda da, həmçinin, amma burada yox. Ona görə burada təbiət demək olar ki, toxunulmaz qalıb. Bir də ki, burada faktiki olaraq əhali yox idi. Hadrutda bəlkə min nəfər yaşayırdı-yaşamırdı. Əhali yox idi. Ona görə bax, bu bölgənin saf təbiətini biz qorumalıyıq. Vətəndaşlar bura qayıtdıqdan sonra, ilk növbədə, bu təbiətin qorunmasına gərək özləri fikir versinlər və əlbəttə, dövlət də öz üzərinə düşən vəzifələri icra edəcək.

Bizim Xocavənd rayonunun, Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı çox böyük planlarımız var. Biz bu gün bu planların icrasına start verdik. Bu gün xocavəndlilər öz doğma torpaqlarına gəliblər, bundan sonra gəlişlər daha da tez-tez həyata keçiriləcək.

Tacikistan şirkətləri Qarabağın bərpa-quruculuq işləri ilə bağlı həyata keçirilən layihələrdə iştirakda maraqlıdır

Azərbaycan-Tacikistan işgüzar görüşü keçirilib.

AZPROMO-dan bildirilib ki, Azərbaycan və Tacikistanın dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə iki ölkə arasında iqtisadi-ticarət əməkdaşlığının perspektivləri, qarşılıqlı ixrac və investisiya potensialının artırılması müzakirə olunub. Videokonfrans formatında keçirilən işgüzar görüşdə iqtisadiyyat nazirinin müavini Rövşən Nəcəf Azərbaycan-Tacikistan arasındakı qarşılıqlı hörmət və dostluq prinsiplərinin ölkələrimiz arasında tarixi və mədəni yaxınlığa əsaslandığını, iqtisadi

əlaqələrin inkişaf etdiyini, keçirilən görüşlərin əhəmiyyətini qeyd edib, ticarət, investisiya, kənd təsərrüfatı və sair sahələrdə əməkdaşlığın həyata keçirildiyini vurğulayıb. İşğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində görülən işləri və yeni investisiya imkanlarını diqqətə çatdıran nazir müavini Azərbaycan və Tacikistan arasında yeni müstəvidə əməkdaşlığın genişləndirilməsi üçün zəmin yarandığını qeyd edib.

Tacikistanın xarici işlər nazirinin müavini Şərəf Şeralizoda ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində, Tacikistan şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpa-quruculuq işləri ilə bağlı həyata keçirilən layihələrdə iştirak etməkdə maraqlı olduğunu vurğulayıb, Azərbaycan-Tacikistan iqtisadi əməkdaşlığının inkişafı istiqamətləri barədə fikirlərini bölüşüb.

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov, Tacikistanın ölkəmizdəki səfiri Rüstəm Solinin də iştirak etdiyi görüşdə iqtisadi-ticarət əlaqələri, ölkəmizin işğaldan azad olunmuş ərazilərinin bərpası üzrə əməkdaşlıq, sənaye zonalarının, Ələt Azad İqtisadi Zonasının investisiya imkanları və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

MİLLƏTİN AZADLIQ HAQQI

1991-ci ilin 18 oktyabrını, yəqin ki, hamı xatırlayır. Bu tarixi unutmaq azərbaycanlılar üçün qeyri-mümkündür. Çünki 18 oktyabr Azərbaycanın dönüş tarixidir, müstəqillik tariximizin başlanğıc nöqtəsidir. Məhz bu gün Azərbaycan dövlətinin taleyində 2-ci dəfə müstəqilliyin bərpası günü kimi qeyd olunur. Həmin gün Müstəqillik Aktı qəbul olundu. Xalq yenidən və bu dəfə əbədi olaraq azadlığını qazandı. Xatırlayırsınızsa, Müstəqillik Aktının qəbul olunduğu sessiyaya o vaxt Ali Sovetin sədrinin birinci müavini, akademik Ziyad Səmədzadə sədrlik edirdi. Biz 15 il öncə bununla bağlı Ziyad müəllimlə görüşüb, müsahibə almışdıq. Bu gün artıq müstəqilliyimizin 30 ili tamam olur. Biz də düşündük ki, o səhifələri Ziyad müəllimlə birgə yenidən vərəqləyək.

- Ziyad müəllim, o tarixi anları necə xatırlayırsınız?

- Azərbaycanın müstəqilliyinin 30 yaşı tamam olur. Tarixən bu, qısa bir dövrdür, lakin 30 il ərzində Azərbaycan, bəlkə də əsrə bərabər yeni bir yol keçmişdir. Bu yol hamar olmayıb. Çox çətin yolumuz olub. Hər şeyin başlanğıcı çətin, mürəkkəb olur. Lakin bu, bir həqiqətdir ki, artıq Azərbaycan müstəqil dövlət kimi dünyada tanınır.

Azərbaycan xalqı əsrlər boyu azadlıq uğrunda mübarizə aparıb. Zəngin dövlətçilik tariximiz var. Azərbaycan 2-ci dəfə idi ki, müstəqil dövlət kimi elan olunurdu. Sonralar sovet sistemində yaşadıq və 1991-ci ildə SSRİ məkanında yeni müstəqil dövlətlərin yaranması prosesi getdi. Və bu proses Azərbaycanı da əhatə etdi. O anları xatırlayarkən, təbii ki, çoxları kimi mən də həyəcan hissləri keçirirəm. Bir sözlə, 90-cı illərin əvvəllərində Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatı çox gərgin idi. Azərbaycan cəmiyyətində ziddiyyətli proseslər baş verirdi. Azərbaycan xalqı artıq qəti əmin idi ki, SSRİ hökuməti Azərbaycanın qədim diyarı olan Qarabağ problemini həll etmək niyyətində deyildir. Əksinə, açıq-aşkar görünürdü ki, SSRİ hökuməti, başda Qorbaçov olmaqla Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına maraq göstərmir, erməni millətçilərini dəstəkləyir. Bu illərdə azadlıq məfhumu tez-tez işlənirdi. Xalq artıq bilirdi ki, yalnız azadlıq imkan verə bilər ki, o, gələcək taleyini özü həll etsin. Amma respublikamızda bu proses digər respublikalara nisbətən daha çətin və mürəkkəb şəraitdə keçirdi. Sovet rəhbərliyinin Azərbaycana münasibəti, birmənalı şəkildə, qərəzli idi. Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi törədilmişdi. Bütün bunlar xalqımızı öz azadlığı uğrunda mübarizəyə çağırırdı. Erməni millətçiləri havadarlarının güclü dəstəyi ilə Azərbaycanın ərazi bütövlüyünə qarşı hücuma başlamışdı. Yalnız azadlıq, müstəqillik imkan verə bilərdi ki, biz gələcəkdə öz taleyimizi özümüz həll edək.

Və 1991-ci ilin 18 oktyabrında artıq bu, qanuni şəkildə həll olundu. Taleyin hökmü idi, qismətdir, nədir, həmin tarixi sessiyaya mən sədrlik edirdim. Təbii ki, bu zalda hamı həyəcan keçirirdi. Çox yüksək gərginlik var idi. Lakin bu gərginliyin arxasında heç də qarşıdurma yox idi. Çünki deputatların hamısı siyasi baxışlarından asılı olmayaraq, Azərbaycanı bir müstəqil dövlət kimi görmək istəyirdi. Baxmayaraq ki, Müstəqillik Aktının ayrı-ayrı maddələri ilə bağlı müxtəlif fikirlər səslənirdi. Bəzən radikal çağırışlar da olurdu. Lakin mahiyyət etibarilə Ali Sovetdə ab-hava Müstəqillik Aktının qəbul edilməsinə yönəlmişdi. Və elə də oldu. Deputatlar yekdilliklə Müstəqillik Aktını qəbul etdilər. Sessiyada iclası bağlayarkən aşağıdakı sözləri dedim: "Bugünkü yekdillik sübut etdi ki, Azərbaycanın parlamenti ölkəmizin ən yaxşı oğul və qızlarından ibarətdir. Gəlin, bu gün, sözün əsl mənasında, yekdil olaq. Gəlin, vətənimiz Azərbaycanda iqtisadi və siyasi reformaları həyata keçirmək üçün hər cür xırda hisslərdən uzaq olaq. Biz mürəkkəb və çətin imtahan qarşısındayıq. Biz müstəqil ölkənin iqtisadi və milli siyasətini formalaşdırmalıyıq. Yenə deyirəm, bu, çox məsul vəzifədir. Məhz bu amal üçün birləşək. Bugünkü yekdil qərarımız sübut etdi ki, biz birləşməyi bacarırıq".

Bu Aktın qəbul edilməsi ilə Azərbaycan tarixində yeni mərhələ başlandı. Bütün dünyanın aparıcı informasiya agentlikləri Azərbaycanın müstəqil dövlət kimi elan olunmasını bəyan edirdilər. Sessiyadan sonra mən bir qrup deputat ilə Azadlıq meydanında bir neçə yüz min əhalinin qarşısında çıxış da etdim. Azərbaycan xalqını təbrik etdim.

- O dövrün çətinliklərindən danışın...

- Təbii ki, 30 il ərzində, xüsusilə də ilk illərdə Azərbaycan çox böyük çətinliklərlə üzləşdi. SSRİ kimi dünyanın quru ərazisinin 16 hissəsinə sahib olan məkandan ayrılaraq, müstəqil dövlət qurmaq həqiqətən tarixi hadisə idi. Amma onu qorumaq və saxlamaq da bir o qədər çətin...

- Bilirsiniz, bəzən məndən soruşurlar ki, taleyindən bir vətəndaş, bir ziyalı, bir alim və ictimai xadim kimi razısanmı? Və mən bu suala belə cavab verirəm – çox razıyam. Razıyam ona görə ki, artıq Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir və biz bu hadisənin canlı şahidləriyik. Və taleyimdən bir də ona görə razıyam ki, o sessiyanın iclasına mən sədrlik etmişəm, gözlərimin yaşını silə-silə iclasa yekun vurmuşam. Azərbaycan kimi o qədər də böyük olmayan bir dövlət üçün müstəqillik qat-qat çətin idi. Ulu öndər Heydər Əliyev dəfələrlə bu barədə deyib ki, "Müstəqilliyi qazanmaq çətindirsə, onu qoruyub saxlamaq da o qədər çətindir". Sonrakı hadisələr, xalqımızın başına gələnlər sübut etdi ki, Azərbaycan xalqı düz yol tutub, bu yolu şərəflə qoruyub və əsrlər boyu qoruyacaqdır.

- Müstəqillik haqqında Konstitusiya Aktının hazırlanmasında əməyi olan adamları xatırlayaq.

- Bilirsiniz, xalqın taleyini xalq özü həll edir. Təbii ki, hər hansı bir qanunun hazırlanmasında müəyyən adamlar işləyir. Bəli, biz işçi qrupu yaratmışdıq. İşçi qrupu daimi komissiyalarla birlikdə müzakirələr aparır, Konstitusiya Aktı barədə qanun layihəsinin hazırlanması, onun təkmilləşdirilməsinə dair təkliflərə öz münasibətini bildirirdi. Amma mən çıxışlarımda həmişə demişəm ki, Konstitusiya Aktının müəllifi Azərbaycan xalqıdır. Mənim iş otağımda dəfələrlə müzakirələr olub. İstər komissiyalarda, istərsə də sessiyada keçirilən müzakirələrdə görkəmli Xalq yazıçısı İsmayıl Şıxlı, Xalq şairi Bəxtiyar Vahabzadə, yüksək səviyyəli hüquqşünaslar - 20 ilə yaxın Ali Məhkəmənin sədri işləmiş Abdulla İbrahimov, Parlamentin hüquq şöbəsinin əməkdaşı Şahin Əliyev, uzun illər partiya, sovet orqanlarında yüksək vəzifələrdə çalışmış Tofiq Bağırov, deputatlar Vahid Əhmədov, Eldar İbrahimov, Arif Rəhimzadə, Tofiq Əzizov, Tofiq Qasımov, Hacıbaba Əzimov, Firudin Cəlilov, Soltan Məmmədov və bir çoxları iştirak etmişdilər. Onu da qeyd edim ki, o günlərdə "Azadlıq" (o vaxtkı "Lenin") adına meydana yığışan yüz minlərlə insan müstəqillik ideyaları ilə yaşayırdı. Və onlar hesab edirdilər ki, yalnız müstəqillik vətənimizin malik olduğu təbii sərvətlərin sahibi ola bilər, ərazi bütövlüyümüzün bərpasını və insanların hüquqlarının qorunmasını təmin edər. Amma, əlbəttə ki, bu fikirləri ümumiləşdirib parlament sessiyasına çıxaran insanların əməyini biz heç vaxt unutmuruq və unutmayacağıq. Bəziləri cılızlıq nümayiş etdirərək deyirlər ki, "bunu mən yazmışam, bunu mən elədim" – bunlar xırdaçılıqdır. Azərbaycanın Ali Soveti bu qanun layihəsini bəyənib, Konstitusiya Aktını yekdilliklə qəbul etdi və bütün xalqa bəyan olundu ki, Azərbaycan müstəqil dövlətdir. Deyəndə ki, "Bu qanunu mən yazmışam, bunu mən dedim" razılaşın ki, bu, son dərəcə acı təəssüf doğurur. Mən həmişə deyirəm ki, taleyüklü qanunlar təkcə bir neçə deputatın, bir neçə məmurun, bir neçə ziyalının əməyinin nəticəsi deyil. Azərbaycanın müstəqilliyi uğrunda mübarizə, yəni bu müstəqillik ideyalarının formalaşması, təşəkkülü bütün xalqa aiddir. Azərbaycanın Dövlət Müstəqilliyi barədə Konstitusiya Aktının müəllifi Azərbaycan xalqıdır.

Bir daha sevinclə, böyük həvəslə bildirirəm ki, Eşq olsun Azərbaycan xalqına!

- Nədir azadlıq, müstəqillik, dövlətin müstəqilliyi?

- Müstəqillik dəyəri ölçülməyən ümumxalq sərvətidir. Azadlığı alınmış insana "qul" deyildiyi kimi, müstəqil olmayan torpağa və xalqa da dövlət deyilmir. Müstəqillik Azərbaycan xalqının, dövlətçiliyinin tarixində böyük dönüşdür, yeni fəslin başlanmasıdır. Müstəqillik Azərbaycan dövlətçiliyinin beşiyi başında duranların etimadıdır. Müstəqillik insanın özünün özünə ehtiramıdır. Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Bunun özü də bizim üçün müstəqilliyin necə qiymətli bir nemət olduğunu sübut edir. Bir müddət bu müstəqilliyimizi itirsək də, xalqımızın yenidən ona nail olması tarixi və əvəzedilməz uğurdur.

Lakin o da doğrudur ki, hüquqi azadlıq tam azadlıq sayıla bilməz. Tarix göstərir ki, müxtəlif dövrlərdə hüquqi azadlıq olsa da, vətəndaşı əzilən dövlətlər də olub. Lakin bu natamamlıq çox çəkməyib. Ona görə də müstəqilliyi hərtərəfli qiymətləndirmək lazımdır.

- Dünəndən – 1991-ci ilin 18 oktyabr pəncərəsindən bu günə, yəni 2021-ci ilin 18 oktyabr tablosuna baxanda qazandıqlarımız və itirdiklərimiz necə görünür?

- Heç şübhəsiz, bu 30 il ərzində qazandıqlarımızı bir yazıda ifadə etmək qeyri-mümkündür. Bu gün Azərbaycanın dünya dövlətləri arasında imzası var.

(davamı 4-cü səhifədə)

MİLLƏTİN AZADLIQ HAQQI

Bu məqamda Məhəmməd Hadinin "yox millətimin xətti bu imzalar içində" misrasını xatırlayıram. Bu gün isə dünyanın aparıcı dövlətləri siyahısında Azərbaycanın imzası hörmətlə görünür, qiymətləndirilir. Hamı bilir ki, onu qazanmaq çox çətindir. Azərbaycan getdikcə tanınır. Qazandıqlarımız çoxdur. Biz milli mədəniyyətimizi, milli ədəbiyyatımızı, bütün milli dəyərlərimizi qorumaq üçün yeni imkanlar qazanmışıq.

Müstəqillik Azərbaycan cəmiyyətinə yenilik gətirdi. Ölkə artıq dağıdılmış köhnə sistemin əvəzinə təzə sistem yaratmalıydı. Özü də yeni bir siyasi və iqtisadi sistem. Bu iqtisadi sistemin mahiyyəti ondan ibarət idi ki, əvvəlki sərt inzibati amirlik sistemi əvəzinə, sərbəstliyə, azadlığa, vahid bir mərkəzdən idarə olunan ideologiyaya zidd bir sistem formalaşsın. Bu, heç də asan məsələ deyildi. Çünki insanlar uzun müddət mərkəzdən idarə olunma siyasətinə öyrəşmişdi. "Hər şey yuxarıdan deyilməlidir, hər şey yuxarı tərəfindən təyin edilməlidir" ideologiyasının əvəzinə, Azərbaycan öz dövlətinin idarə edilməsi sistemini qurmalıydı, idarə etməliydi. Azərbaycan öz iqtisadiyyatını müasir tələblərə, bazar münasibətləri şəraitinə, dünya standartları tələblərinə uyğun qurmalıydı. Eləcə də Azərbaycan cəmiyyətində bütün bu yeni siyasi-iqtisadi sistemin tələblərinə uyğun insanlar formalaşmalıydı. Çox sevinirəm ki, biz bütün bunlara nail olduq, mürəkkəb, çətin, lakin şərəfli bir yol keçdik.

1991-ci il oktyabrın 18-də sessiyanı başlayarkən dediyim kimi, çox ağır çətinliklərlə üzləşdik. Müstəqilliyin ilk illərində səhvlər daha çox buraxılırdı ki, bu da ölkədə kəskin qarşıdurma proseslərini gücləndirirdi. Özünü demokrat adlandıran insanlar sərişdəsiz yol göstərirdilər. Və bütün bunlar ölkənin iqtisadi həyatına təzyiq göstərirdi. İş o yerə çatmışdı ki, Ali Sovetin sessiya iclaslarını apararkən bizim ətrafımızda özlərini əsl demokrat kimi qiymətləndirən insanlar silahla bizi hədələyirdilər, qorxudurdular. Iqtisadiyyatda da vəziyyət getdikcə gərginləşirdi.

Vətənin dar günündə hadisələr respublikada elə inkişaf edirdi ki, müstəqilliyin itirilməsi təhlükəsi artırdı və ikinci dəfə Heydər Əliyevin hakimiyyətə qayıdışı, onun dövləti səriştəli idarəetmə məharəti, tətbiq etdiyi çox ciddi, o dövr üçün son dərəcə zəruri olan siyasət Azərbaycanın müstəqilliyinin qorunması əsaslarını qat-qat möhkəmləndirirdi. Azərbaycan bu illəri yaşadı. O dövrdə ölkənin maliyyə vəsaitləri yox idi. Əhalinin vəziyyəti ağırlaşırdı. Ərzaq malları, xüsusi ilə də çörək qıtlığı yaranırdı. Azərbaycan müstəqil dövlət olsa da, hələ də onun müstəqilliyini tanımayan, onunla hesablaşmayan çoxsaylı ölkələr var idi. Bir tərəfdən də erməni təcavüzü öz işini görürdü. Belə bir şəraitdə Heydər Əliyev Azəbaycanın neft strategiyasını hazırladı. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi" imzalandı və bununla da iqtisadi müstəqilliyimizin qorunmasının əsasları əhəmiyyətli dərəcədə möhkəmləndirildi.

- Nəyi yenidən bərpa etməliyik?

- İnsanların bir çoxu, xüsusən də ziyalılar o ağır, mürəkkəb şəraitdə özlərini qoruyub saxlaya bilmədilər, milli mənafelərə uyğun gəlməyən istiqamətlərə əyildilər. Necə deyərlər, yerindən duranın özünü siyasətçi kimi qələmə vermək imkanı artdı. Vəzifədən çıxarılanlar əqidəsini dəyişirdi. Bu hallar çox ağır təsir bağışlayırdı. Amma başa düşmürdülər ki, bu məmləkəti qorumaq üçün birlik lazımdır. Müəyyən şəxslər insanlar arasında hərc-mərclik şəraiti yaratmaq istəyirdilər. Hətta o günlərdə çoxuna bolşevik damğası altında zərər vurmaq istəyənlər də az deyildi. Bax, bu bizə çox baha başa gəldi. Kütləvi surətdə böyük təcrübəsi olan insanlar vəzifədən uzaqlaşdırıldı. Amma min şükür ki, zaman keçdikcə hər şey öz adıyla çağırılmağa başlandı. Tarix lazımınca qiymətləndirildi. Bu, belə də olmalıydı.

Əvvəlki sualın cavabının davamı olaraq bir nümunə demək istəyirəm. Məsələn, Çin iqtisadi islahatlar apararkən bir sıra məsələləri diqqət mərkəzində saxladı. O, ölkədə sosial sarsıntıların baş verməməsi üçün çoxlu tədbirlər gördü. Amma MDB daxilində olan yeni müstəqil dövlətlərin əksəriyyətində islahatlar prosesində sosial sarsıntılar baş verdi ki, onun nəticəsini xalqlar bu gün də hiss edirlər.

Təbii ki, qazandıqlarımız qat-qat çox olub. Biz, Müstəqil Azərbaycan dövlətinin vətəndaşıyıq və bununla da fəxr etməliyik. Amma bu sevinc, bu qürurun əbədi olması üçün hamı, sözün əsl mənasında, millət üçün, vətən üçün çalışmalıdır. İqtisadi inkişafımız gücləndikcə, yeni keyfiyyət mərhələsinə qalxdıqca biz, sanki, özümüz də yeniləşirik və itirdiklərimizin bərpası üçün daha böyük tədbirlər görürük. Sadə bir misal deyim, 90-cı illərin əvvəllərində və ortalarında biz elə başa düşürdük ki, hər şey xaricdən gəlsə, bu, millət üçün yaxşı olar. Açıldı qapılar. Ölkəyə qaydasında imiş kimi görünən, lakin anbarlarda illərlə qalmış, vaxtı keçmiş məhsullar axdı. Radikal islahatçılar bildirirlər ki, dövlətin iqtisadiyyata qətiyyən müdaxiləsi olmamalıdır. Kim nə istəyirsə, onu da etsin. Belə yanaşma bizə, iqtisadiyyatımıza baha başa gəldi.

Bu da etiraf edilməlidir ki, azad bazar iqtisadiyyatı qurmaq pərdəsi arxasında bir çox xarici ekspertlərin tövsiyələri təhlil edilmədən, süzgəcdən keçirilmədən tətbiq olunmuşdur. Xüsusilə, özəlləşmə prosesində sənaye potensialına xeyli zərbə vuruldu. Bu kimi məsələlər çox idi və onlar getdikcə öz həllini tapırdı ki, bu da iqtisadi inkişafımızın əsaslarını möhkəmləndirirdi.

Sovet dövründə məhsulun keyfiyyəti, hətta məhdud imkanlar şəraitində diqqət mərkəzində idi. Müstəqilliyin ilk illərində obyektiv və subyektiv səbəblərə görə bu məsələ arxa plana keçirilmişdi. Bu gün keyfiyyət məsələsinə münasibət köklü surətdə dəyişməlidir. Biz sivil cəmiyyət quran bir dövlət kimi insanların qayğısına daha ciddi qalmalıyıq. İnkişafımız var, lakin bu inkişafın əhalinin sağlamlığına, millətin genofonduna təsiri necə olacaqdır məsələsi ön plana çəkilməlidir. Onu da deyim ki, keyfiyyət anlayışı təkcə yeməyə, geyimə aid deyil, insana da aiddir. Yəni, keyfiyyətli insan yetişdirmək ölkəmiz üçün müqəddəs vəzifələrdən sayılmalıdır.

- "Tarix sübut edir ki, Azərbaycana həmişə və həmişə birlik lazımdır" – müsahibələrinizdə bu, tez-tez səslənir. Bəs, bu gün necə, o birlik varmı?

- Heç şübhəsiz, Azərbaycan xalqının indiki əhval-ruhiyyəsində, dünənə, bu günə və sabaha baxışlarında çox böyük dəyişikliklər var. Şərəfli 44 günlük Vətən müharibəsi dövründə xalqın Ali Baş Komandan və ordu ilə olan birliyi, dəmir yumruq kimi birləşməsi bu sualın cavabıdır. Cənab Prezident İlham Əliyevin dediyi kimi, biz birlikdə güclüyük və bir xalq olaraq bunu 44 günlük müqəddəs savaşımızda sübut etdik.

Dövlət o vaxt inkişaf edir ki, onun inkişafı hər bir vətəndaş üçün maraqlı olsun. "Bunu mən etməməliyəm, dövlət etməlidir" kimi fikirlərdən biz tədricən uzaqlaşmalıyıq. Biz, eyni zamanda "Sən fikirləşmə ki, dövlət sənin üçün nə edib. Sən fikirləş ki, sən dövlət üçün nə edirsən" prinsipi ilə yaşamalıyıq. Sözümü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı ilin 2 oktyabrında Milli Məclisdəki çıxışından aşağıdakı sözlərlə bitirmək istəyirəm:

"İndi bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq – bu, bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək və beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi – bütün bunlar bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir. Bütün istiqamətlər üzrə bizim proqramımız var. Hər bir istiqamət üzrə bizim baxışlarımız var, bilirik ki, nə istəyirik, haraya gedirik və təxminən bilirik ki, bunun nəticəsi nə olacaqdır. Nəticədə isə güclü ölkə olacaq, güclü Azərbaycan olacaq və Azərbaycan xalqı bundan sonra da yaxşı yaşayacaqdır. Bütün bu məqsədlərimizə çatmaq üçün biz gərək səmərəli işləyək".

Son 15 il bu deyilənləri təsdiq etdi. Ölkəmiz bu illər ərzində böyük inkişaf yolu keçdi. İqtisadi, siyasi gücümüz artdı. İqtisadi inkişaf sürətinə görə dünyada qabaqcıl yerə çıxdı. Borc alan ölkədən borc verən ölkəyə çevrildik. Güclü ordu yaratdıq ki, Azərbaycanın müdafiə qabiliyyətliliyi daha da artsın. İrimiqyaslı sosial layihələr həyata keçirildi. Bütün bunlar, eləcə də xalq-iqtidar birliyi sayəsində biz torpaqlarımızı erməni işğalından azad etdik və azad olunmuş ərazilərimizdə sürət və keyfiyyətlə, "Böyük Qayıdış" layihələri reallaşdırılır. Bu barədə cənab prezidentin də qeyd etdiyi kimi: "Bizim "Böyük Qayıdış"ımız Cəbrayıldan başlamışdır və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuz da məhz Cəbrayıl şəhəri ilə, Cəbrayıl rayonu ilə bağlıdır. Bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir. Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, Ordumuzun arxasında durdu və Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq".

- Bu yaxınlarda Milli Məclisdə yeni qanun layihəsi müzakirə edildi. Siz bu qanun layihəsini necə qiymətləndirirsiniz?

- Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə Milli Məclisə daxil olan qanun layihəsi müstəsna əhəmiyyətə malikdir və Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasını qanunla təsdiq edir. Qanun layihəsində haqlı olaraq göstərilir ki, 2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir. Bu məqsədlə qanun layihəsində müəyyən dəyişikliklər həyata keçirilmişdir. Qeyd edilən dəyişiklik bilavasitə Azərbaycan xalqının əldə etdiyi qələbə ilə bağlıdır. Biz ölkəmizin ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etdik, düşmən üzərində tarixi Zəfər çaldıq.

Milli Məclisin qəbul etdiyi qanuna əsasən "Respublika Günü" kimi qeyd olunan 28 May tarixi "Müstəqillik Günü", "Müstəqillik Günü" kimi qeyd edilən 18 Oktyabr isə "Müstəqilliyin Bərpası Günü" elan edilmişdir.

Hazırladı:
Sevinc ÇILĞIN

BVF Azərbaycan iqtisadiyyatı üzrə proqnozunu yüksəldib

Beynəlxalq Valyuta Fondunun (BVF) yenilənmiş proqnozuna əsasən, bu il Azərbaycan iqtisadiyyatı 3% artacaq.

Fondun "World Economıc Outlook" hesabatının oktyabr buraxılışına görə, 2022-ci ildə 2,3%-lik artım gözlənilir.

Qeyd edək ki, BVF-nin aprel proqnozunda 2021-ci il üçün 2,3%-lik, 2022-ci il üçün isə 1,7%-lik böyümə vəd edilirdi.

Son məlumatlara gəldikdə, cari ilin ilk səkkiz ayında Azərbaycan iqtisadiyyatının artım tempi 3,6%-ə çatıb.

Xatırladaq ki, 2020-ci ildə ölkə iqtisadiyyatı 4,3% kiçilib.

Beynəlxalq Valyuta Fondunun (BVF) yenilənmiş proqnozuna əsasən, bu il Azərbaycanda istehlak qiymətləri illik 4,4% artacaq.

Hesabatda verilən məlumata görə, 2022-ci ildə orta illik inflyasiya 3,2% səviyyəsində gözlənilir.

Xatırladaq ki, 2020-ci ildə Azərbaycanda orta illik inflyasiya 2,8% təşkil edib.

“18 oktyabr tarixinin “müstəqilliyin bərpası günü” adlandırılması həm hüquqi, həm də məntiqi baxımdan tam doğru və əsaslıdır”



Bu sözləri Milli Məclisin komitə sədri Musa Quliyev oktyabrın 11-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclasında qanun layihəsi barədə çıxış edərkən deyib. O, bildirib: “Müzakirə etdiyimiz qanun layihəsi xalqımızın və dövlətçiliyimizin tarixində 2 ən müqəddəs və şərəfli günün adının və yerinin dəqiqləşdirilməsi, tarixi dövlətçilik ənənələrimizin davam etdirilməsi, siyasi və hüquqi varislik prinsipinin təmin olunması, təqvim tarixlərinin ifadə formasının məsələnin mahiyyətinə və məzmununa uyğunlaşdırılması məqsədi daşıyır. 1991-ci ildə yenidən öz müstəqilliyinə qovuşmuş müasir Azərbycan dövləti həm siyasi-hüquqi baxımdan, həm də tarixi-mənəvi baxımdan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

Millət vəkili qanun layihəsini dəstəklədiyini bildirib və deputat həmkarlarını layihənin lehinə səs verməyə çağırıb.

Deputatlar müzakirə olunan qanun layihəsinin Vətən müharibəsində Azərbaycanın zəfəri və dövlətçilik tarixi baxımından əhəmiyyətini, daşıdığı məna yükünü xüsusi qeyd ediblər. “Müstəqillik Günü haqqında” qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Azərbaycan və Çili arasında investisiya sahəsində əməkdaşlıq müzakirə olunub

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunda (AZPROMO) Çili Respublikasının Azərbaycanda müvəqqəti işlər vəkili Fidel Koloma Qrimberq ilə görüş keçirilib.

AZPROMO-dan bildirilib ki, qurumun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev təmsil etdiyi fondun fəaliyyətindən danışıb, ölkəmizdə qeyri-neft sektorunun inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması, ixracın genişləndirilməsi, “Made in Azerbaijan” brendinin və xarici investisiyaların təşviqi üçün görülən işlər, həyata keçirilən tədbirlər barədə məlumat verib.

Çilinin Azərbaycandakı müvəqqəti işlər vəkili Fidel Koloma Qrimberq iqtisadi tərəfdaşlığın genişdirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb, bu sahədə işgüzar görüşlərin önəmini vurğulayıb.

Görüşdə iki ölkə arasında investisiya sahəsində əməkdaşlığın inkişafı barədə fikir mübadiləsi aparılıb.

Gömrük Komitəsi büdcəyə 3 milyard 193 milyon manat köçürüb

Yanvar-sentyabr aylarında Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə daxilolmalar 3 milyard 193 milyon 246 min manat olub.

Komitədən bildirilib ki, doqquz ayda gömrük rüsumları üzrə dövlət büdcəsinə daxilolmalar 870 milyon 109 min manat, əlavə dəyər vergisi üzrə 2 milyard 170 milyon 888 min manat, aksizlər üzrə 120 milyon 542 min manat, yol vergisi üzrə isə 31 milyon 703 min manat təşkil edib.

Zəngəzur dəhlizinin bölgələrarası ticarət və nəqliyyatın inkişafı üçün böyük potensialı var

Qazaxıstanın paytaxtı Nur-Sultanda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) üzv dövlətlərinin xarici işlər nazirlərinin görüşünün (hibrid formatda) gündəliyində forumun fəaliyyətinin əsas seqmentlərində etimad tədbirlərinin gücləndirilməsi kontekstində inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev Azərbaycanın AQEM-in üzv dövlətləri arasındakı ticarət, nəqliyyat və tranzit imkanlarından daha səmərəli istifadəni davam etdirəcəyini bildirib.

Sentyabrın 23-də Azərbaycanın təşəbbüsü ilə keçirilən ekspertlərin son iclasında üzv dövlətlərin, eləcə də özəl sektorun nümayəndələrinin rəqəmsallaşdırma və texnoloji nailiyyətlərin tətbiqi yolu ilə bu sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqları vurğulanıb.

44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı möhtəşəm Zəfər nəticəsində Ermənistanla Azərbaycan arasında 30 il davam edən silahlı qarşıdurmanın Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən üçtərəfli Bəyannamənin imzalanması ilə başa çatdığı qeyd olunub.

“Üçtərəfli Bəyannamənin 9-cu bəndinə uyğun olaraq Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizi münaqişədən sonrakı normallaşma üçün vacibdir. Zəngəzur dəhlizi bölgələrarası ticarət və nəqliyyatın inkişafında böyük potensiala malikdir. Bu fürsətdən istifadə edərək, biz bütün AQEM üzv dövlətlərini bu tarixi əlamətdar layihədə iştirak etməyə və onun geniş imkanlarından istifadəyə dəvət edirik”, - deyə nazir müavini deyib.

Görüşdə çıxış edənlər Asiya regionunda ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət edildiyini, mehriban qonşuluq, daxili işlərə qarışmamaq prinsipləri əsasında əməkdaşlığın qurulmasına önəm verildiyini, narkotik qaçaqmalçılığına, terror qruplaşmalarına qarşı mübarizənin zəruriliyini diqqətə çatdırıb.

Görüşdə xarici işlər nazirləri Əfqanıstanla bağlı bir neçə aspektdən ibarət geniş bəyanat yayıblar. İlk növbədə üzv dövlətlər Əfqanıstanda sülhün və iqtisadi inkişafın bərpasının bütün AQEM regionunda təhlükəsizlik və sabitlik üçün əsas məqam olduğunu ifadə ediblər.

Görüş çərçivəsində, AQEM tərkibində Müdriklər Şurasının məşvərətçi orqanının yaradılması qərara alınıb. Qazaxıstanın AQEM-ə sədrliyinin 2024-cü ilə qədər davam edəcəyi açıqlanıb.

Şərqi Zəngəzur və Qarabağda hidroloji stansiyalar qurulacaq

“Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaradılan Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları su ehtiyatları baxımından çox zəngindir”.

Bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev Bakıda Almaniya-Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə keçirilən və su infrastrukturunun davamlı inkişafına həsr edilmiş “Davamlılıq Forumu 2021” tədbirində bildirib.

Bununla belə, onun sözlərinə görə, bu ərazilərdə yerləşən transsərhəd çaylar (Araz, Bəsitçay, Oxçuçay) 30 illik işğal dövründə ekoloji nəzarətdən kənarda qalıb: “Bu çaylarda aparılan monitorinqlər həmin axınların Ermənistan ərazisində çirklənməyə məruz qaldığını göstərir. Həmin ərazilərdə 14 çay, 9 su anbarı yerləşir. Oradakı yerüstü və yeraltı su ehtiyatlarından həm içmək, həm də aqrar sahədə istifadə etməklə bağlı zəngin potensial var. Ərazidəki su obyektlərinin səmərəli istifadəsi ilə bağlı dövlət nəzarəti təşkil edilir. Su ehtiyatlarının qiymətləndirilməsi ilə bağlı fəaliyyət bərpa olunub. İşğal nəticəsində sıradan çıxmış hidrometeoroloji məntəqələrdə tezliklə müasir avtomot sistemlərinin tətbiqi ilə müşahidələrin bərpası planlaşdırılır. Bu il avtomot hidroloji stansiyasının qurulması nəzərdə tutulur”.



Azərbaycanda 10 yeni su anbarı tikiləcək

“Yaxın illərdə Azərbaycanın müxtəlif rayonlarında (Tovuz, Ağdaş, Ağsu, ölkənin şimal bölgəsi və s.) 10 su anbarının tikintisi nəzərdə tutulub”.

Bu sözləri Bakıda keçirilən “1-ci Alman-Azərbaycan Dayanıqlılıq Forumu 2021” tədbirində çıxış edən “Meliorasiya və Su Təsərrüfatı” ASC-nin sədrinin müavini Rafiq Aslanov deyib.

Su infrastrukturunun dayanıqlı inkişafı mövzusunda müzakirələr aparılıb

Alman-Azərbaycan Xarici Ticarət Palatasının təşkilatçılığı ilə oktyabrın 12-də 1-ci Alman-Azərbaycan Dayanıqlılıq Forumu keçirilib.

Azərbaycan və Almaniyadan olan 150-yə yaxın yüksəkvəzifəli biznes nümayəndəsini bir araya gətirən tədbirdə "Azərbaycanda su infrastrukturunun dayanıqlı inkişafı" mövzusunda müzakirələr aparılıb. Forumun əsas məqsədi yaşıl texnologiyalar sahəsinə maraq göstərən alman və Azərbaycan şirkətlərini, müvafiq iqtisadi və siyasi qurumların yüksək vəzifəli nümayəndələrini, o cümlədən bu sahə üzrə mütəxəssisləri bir araya gətirərək, aktiv təcrübə mübadiləsi üçün səmərəli bir platforma yaratmaqdır.

Forum "Azərbaycanda su infrastrukturunun dayanıqlı inkişafı" mövzusu üzrə Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi tərəfindən maliyyələşdirilən alman şirkət nümayəndələrinin Azərbaycana 4 günlük işgüzar səfəri çərçivəsində təşkil olunub.

"AHK Azərbaycan"ın icraçı direktoru Tobias Baumann görüşün proqramını qısa şəkildə iştirakçılara təqdim edib. Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev Azərbaycanda su təminatlarının yaxşılaşdırılması və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi məqsədilə hökumət tərəfindən həyata keçirilən bir sıra tədbirlər haqqında iştirakçılara məlumat verib. O, işğaldan azad edilmiş ərazilərin təbii sərvətlərindən dayanıqlı və səmərəli istifadə etmək üçün hökumətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsindəki digər təşəbbüslərini və investisiya planlarını da təqdim edib. Nazir müavini, "AHK Azərbaycan"ın və Almaniya Federal Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi Nazirliyinin dəstəyi ilə ərsəyə gələn bu xüsusi platformanın, ölkənin müvafiq sahədə istifadə olunmamış potensialının qiymətləndirilməsində çox mühüm rol oynadığını bildirib.

Almaniyanın xarici iqtisadi siyasətinin çox vacib bir sütunu olan "AHK Azərbaycan" haqqında danışan Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniq yerli bazar haqqında məlumatlılığı artırmaq üçün hər iki ölkənin yüksək səviyyəli tərəflərini bir araya gətirməkdə və yeni əməkdaşlıqların təməllərinin atılmasında palatanın vacib rolunu vurğulayıb. Səfir qeyd edib ki, bu heyət səfərində yüksək səviyyəli alman KOBİ-lərinin iştirakı Almaniyanın Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərini reallaşdırmağa töhfə vermək istəyinin bariz nümunəsidir.

Qasım bəy Zakir (1784-1857)

Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Onun əsli Qarabağda məşhur olan Cavanşirlər nəslindəndir. Ulu babası Kazım ağa Şuşa şəhərinin əsasını qoyan Pənahəli xanın doğma qardaşıdır. Zakir ilk təhsilini Şuşada mollaxanada almış, ərəb, fars dillərini öyrənmişdir. Bu dilləri bilməsi ona Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustadlarının əsərləri ilə tanış olmaq imkanı vermişdir. Zakir mollaxanada oxuduğu illərdə adları çəkilən sənətkarların bədii irsini oxuyub öyrənmişdir. Şairin yeniyetməliyi və gəncliyi Qarabağda baş vermiş siyasi-hərbi hadisələr dövrünə təsadüf edir. 1795-ci ildə Qacarın Qarabağa hücum edib, Şuşanı mühasirədə saxlaması, əhalinin şəhəri mərdliklə müdafiə etməsi, bundan iki il sonra Qacarın Şuşada qətli, şair Molla Pənah Vaqifin öz oğlu ilə birlikdə Cıdır düzündə öldürülməsi, XIX əsrin əvvəllərində İbrahim xanın Qarabağda vəhşicəsinə güllələnməsi və s. onun yeniyetməlik və ilk gənclik illərində gördüyü hadisələr, eşitdiyi əhvalatlar idi. Bu hadisələr onun dünyagörüşünün formalaşmasına öz təsirini göstərmişdir. Qarabağ xanlığı Rusiyanın idarəçiliyinə keçdikdən sonra Zakir Çar ordusunun Qafqaz müsəlman könüllü atlı dəstəsinə qoşulmuş, 1806-1813, 1826-1828-ci illərin Rusiya-İran müharibələrində iştirak etmişdir. O, Abbas Mirzənin başçılıq etdiyi İran qoşununa qarşı vuruşan dəstənin tərkibində olmuş, döyüşlərdə fərqləndiyinə görə 1828-ci ildə gümüş medalla təltif edilmişdir.

1829-cu ildə Zakirin oğlu xəstələnib vəfat edir. Bu hadisə şairi dərindən kədərləndirmişdir. Bu münasibətlə yazdığı şeirində Zakir oğlunun ölümündən doğan iztirablarını təsvir etmişdir.

Zakir 1830-cu ildə könüllü polis dəstələrinin tərkibində Balakənə getmiş, Cardakı üsyanların yatırılmasında iştirak etmişdir. O, dostu Baba bəy Şakirə göndərdiyi "Car müqəddiməsi" adlı mənzum məktubunda Qarabağ atlılarının döyüşdə göstərdiyi igidlikləri tərifləmiş, özünün şücaəti haqqında yazmışdır.

Gənclik illərini at belində, müxtəlif müharibələrdə və döyüşlərdə keçirən Qasım bəy Zakir 30-cu illərin sonlarında tamamilə təsərrüfatçılıqla məşğul olmağa başlayır. O, ilin yay fəslini Şuşada, qalan fəsillərini isə Xurşidbanu Natəvanın atası Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində keçirirdi. Cəmisi 20 evdən ibarət olan bu kəndin illik gəliri 450 manata yaxın idi. O kənddə kəndlilərlə birlikdə işləyər, onlarla bir süfrəyə oturmaqdan çəkinməzmiş.

Zakir müasirləri arasında da dərin hörmət və böyük nüfuz qazanmışdır. Azərbaycanın Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qutqaşınlı, Baba bəy Şakir, Xurşidbanu Natəvan kimi tanınmış ziyalıları, habelə gürcü knyazı İliko Orbeliani, Bakı general-qubernatoru Mixail Kolyubakin onun məktublaşdığı, əlaqə saxladığı məşhur şəxsiyyətlər idi. Lakin Zakiri sevməyənlər, onun paxıllığını çəkənlər də var idi. Zakirin satirik tənqidinə hədəf olmuş bu adamlar şairi dövlət yanında etibardan salıb, tutdurmaq üçün müəyyən bəhanə axtarır, uyğun məqam gözləyirdilər. 1849-cu ilin oktyabr ayında böyük bir atlı-yaraqlı dəstəsi Zakirin yaşadığı Xındırıstan kəndinə hücum etdi. Həmin gün Zakirin özünü də ailə üzvləri və yaxın qohumları ilə birlikdə həbs edib, Şuşa həbsxanasına gətirdilər. Həbsxanada olarkən şair bir neçə dəfə yuxarı hökumət dairələrinə məktubla qanunsuz tutulduğunu yazıb bildirsə də, onun şikayətlərinə ədalətli cavab verilmədi. Şair bir ilə qədər Şuşa həbsxanasında qaldıqdan sonra mühakimə olunmadan Bakıya sürgün edildi. Bakıya gəldikdən sonra Zakir dövlət idarələrində çalışan dostlarına məktub yazıb, qanunsuz həbs edildiyini bildirdi. O zaman Tiflisdə Canişinlik idarəsində işləyən Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qutqaşınlı (yazılanlara görə o, İ.Qutqaşınlı ilə Car hərbi ekspediyasında olarkən tanış olmuşdu), Bakı qubernatoru Mixail Kolyubakin, Gürcü knyazı İliko Orbeliani Zakirin şikayətlərini dinləyib, sürgündən azad olunmasına çalışdılar. Şair bir neçə ay Bakıda sürgün həyatı keçirdikdən sonra bu şəxslərin səyi nəticəsində Şuşaya qayıtdı. Lakin o, ömrünün axırınadək polis nəzarəti altında yaşadı. Oğlu və qardaşı oğlu isə 3 il Rusiyada sürgündə qaldılar.

Qasım bəy Zakir ömrünün sonlarını maddi ehtiyac və çətinliklər içərisində başa vurmuşdur. Qarabağa qayıdanda Rus çarizmi ona pensiya kəsdi, lakin o bu maaşı görmədi. Maaş Şuşaya çatanda artıq gec idi. Qasım bəy vəfat etmişdi O, 1857-ci ildə Şuşada vəfat etmiş və şəhərin Mirzə Həsən qəbiristanlığında dəfn edilmişdir.

Yaradıcılığı

Zakirin satiraları əsas etibarı ilə çar hakimləri və çarizmin müstəmləkəçi qanun və qaydaları əleyhinə çevrilmişdir. Zakirin satirasında ən amansız tənqid olunanlar gücsüzlərin və acizlərin hüquqlarını tapdalayanlardır. İfşaçılıq, kəskin tənqid və kinayəli gülüş Zakir satiralarının əsas xüsusiyyətlərindəndir. O, ictimai nöqsanları sadəcə təsvir etməklə kifayətlənmir, eyni zamanda onlara qarşı özünün kəskin tənqidi münasibətini, nifrət və qəzəbini də bildirir.

Zakirin yaradıcılığında onun mənzum hekayə və təmsilləri də mühüm yer tutur. Nizami, Xaqani, Füzuli və başqa Azərbaycan klassikləri öz mənzum hekayələrinin çoxunu müasir həyatın tələblərinə uyğun olaraq yazmışlar. Klassiklərin mənzum hekayələrində müəyyən hadisələrin, real insan surətlərinin, qabaqcıl ideyaların təsvir və tərənnümü verilir. Eyni xüsusiyyətlər Zakirin mənzum hekayələrində də var. Onun müxtəlif mövzularda yazılan "Məlikzadə və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər", "Tərlan və elçi", "Dəvəsi itən kəs", "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxlaqsız qazi", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biaməl alim" kimi mənzum hekayələri vardır.

Zakirin mənzum hekayələrində məhəbbət insanın ülvi və nəcib hissi kimi təsvir olunur. Məhəbbətdə sədaqət, mətanət və dözümlülük, vəfada möhkəmlik bu hekayələrin bir qismində əsas məzmunu təşkil edir.

Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun nəşr olunmuş "Əsərləri"ndə:

"Aslan, qurd və çaqqal", "Dəvə və eşşək", "Tülkü və qurd", "Xain yoldaşlar haqqında" ("İlan, dəvə, tısbağa"), "Tülkü və şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, qarğa, kəsəyən, ahu") adları ilə altı təmsili çap olunmuşdur.

Zakir təmsillərini yazarkən birinci növbədə şifahi xalq yaradıcılığında geniş yayılan təmsillərdən və məşhur hind abidəsi "Kəlilə və Dimnə" əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli təmsillərindən də istifadə etmişdir.

Zakir təmsillərini yeni tarixi şəraitə, müasir həyatın tələblərinə uyğun olaraq yazmışdır. Bu əsərlərdə təbliğ olunan ideya şairin dövrü ilə həmahəng idi. O, bir tərəfdən dövrünün ictimai və siyasi hadisələrinə özünün eyhamları ilə işarələr edir, zülmün əleyhinə çıxır, o biri tərəfdən zəmanə gənclərinə vəfa, sədaqət, mərdlik və s. kimi nəcib tərbiyəvi məsləhətlər verirdi.

Cənub Qaz Dəhlizi ölkəmizin gələcək inkişafına xidmət edir

Bu gün Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir. İqtisadiyyatı artan templərlə inkişaf edən respublikamız nəinki regional, həmçinin qlobal müstəvidə sayılıb-seçilən ölkəyə çevrilib. Bütün bu uğurların təməlində ulu öndər Heydər Əliyev tərəfindən yaradılan, 17 ildə cənab Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən dövlətçilik modeli dayanır. Bu modelin əsas sütunlarından biri 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" neft kontraktıdır. Həmin layihənin gerçəkləşdirilməsi fonunda Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi və digər transmilli layihələrin reallaşdırılması Azərbaycanı iqtisadi tənəzzüldən çıxararaq, yüksək iqtisadi inkişaf və tərəqqi yoluna qovuşdurdu. Cənab İlham Əliyevin respublikaya rəhbərliyi illərində Azərbaycan nəinki enerji, eyni zamanda beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrildi.

Lakin yalnız bu layihələrlə kifayətlənilmədi. Onların ardınca yeni layihələr gəlməyə başladı.Azərbaycanın qlobal aləmdə tərəfdaş ölkə kimi önəmi artdı.

2011-ci il yanvarın 13-də Bakı şəhərində Avropa Komissiyası ilə Azərbaycan hökuməti arasında Cənub Qaz Dəhlizi haqqında birgə bəyannamə imzalandı. Bununla da Avropa bazarına çıxış üçün siyasi razılaşma əldə olundu. Bu sənəd qarşılıqlı maraqlara söykənməklə yeni əməkdaşlıq imkanları açdı. Layihənin gerçəkləşməsi Turkiyə ilə razılaşmadan keçirdi və Prezident İlham Əliyevin 2011-ci il oktyabrın 25-də Türkiyəyə səfəri çərçivəsində bu razılaşma əldə olundu. İmzalanan sənədlər Azərbaycan qazının Türkiyə və Avropaya nəqli üçün əlverişli hüquqi baza yaratdı. Hər iki ölkənin birgə təşəbbüsü ilə Trans Anadolu Qaz Kəməri (TANAP) layihəsinin əsası qoyuldu. Bununla da regionda enerji layihələrinin xəritəsinin şaxələndirilməsi üçün real imkanlar açıldı.

2013-cü il iyunun 28-də "Şahdəniz" konsorsiumu Azərbaycan qazının Avropaya nəql edilməsi üçün Trans-Adriatik boru kəmərinin (TAP) yaradılmasını elan etdi. Bununla da Türkiyə, Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən TAP boru kəməri Cənub Qaz Dəhlizinin formalaşmasında müstəsna əhəmiyyət kəsb etdi. Bu kəmər həm də qismən Bolqarıstanda qaz nəqlini nəzərdə tutur.

2021-ci ilin fevral ayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası baş tutmuş və həmin konfransda Azərbaycan Prezidenti İlham Əliyev demişdir:

"Əlbəttə, əvvəlcə hər birinizi Cənub Qaz Dəhlizinin inşasının başa çatdırılması münasibətilə təbrik etmək istəyirəm. Ötən ilin sonuncu günü əlamətdar olmuşdur. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir. Əminəm ki, bizim birgə fəaliyyətimiz davam edəcəkdir, çünki plan və ideyalarımız var"...

Avropa Komissiyasının enerji məsələləri üzrə kommissarı xanım Kadri Simson uğurlu tərəfdaşlıq məsələlərindən danışaraq demişdir: "Cənub Qaz Dəhlizi Avropa İttifaqına öz enerji təchizatını şaxələndirmək, vətəndaşlarımıza daha çox seçim və rəqabəti təmin etməkdə kömək edir. Faktiki olaraq, biz İtaliyada bu ilin əvvəlində qazın qiymətinin artıq aşağı düşdüyünü görürük. Bu, uğurlarımızın, həmçinin yeni tərəfdaşlığın başlanması deməkdir. Bu dəhliz vasitəsilə Avropa İttifaqı və Azərbaycan hazırda strateji tərəfdaşdır!"

Ekspertlərin rəyinə görə, Cənub Qaz Dəhlizi istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqlarını uzlaşdırmaq, bölgəyə 30 milyard dollarlıq sərmayə cəlb etmək, yeni iş yerləri yaratmaq və enerji təhlükəsizliyini təmin etmək baxımından çox əhəmiyyətlidir. Asiya və Avropanın 7 ölkəsinin ərazisindən keçməklə 3,5 min kilometr məsafəni qət edən və dünyanın aparıcı enerji şirkətlərini birləşdirən Cənub Qaz Dəhlizinin tam fəaliyyətə başlaması Azərbaycanın qlobal layihə idarəetməsində önəmini artırıb. Həm də layihənin maliyyələşməsinin 30 faizini üzərinə götürməklə onu Cənub Qaz Dəhlizinin reallaşmasında əsas söz sahibinə çevirib. Burada söhbət sadəcə bir enerji layihəsindən getmir. Bu layihə həm də Xəzər, Qara dəniz, Aralıq dənizi və Adriatik dənizi kimi çox geniş və mühüm ekvatoriyada uzunmüddətli və etibarlı əməkdaşlıq platformasının yaradılmasına xidmət edir. Hazırda geosiyasi reallıqlar yeni çağırışlara adekvat cavab verməyi zəruri vəzifə kimi qarşıya qoyur. Qarşılıqlı razılaşma və əməkdaşlıq mühitinin yaradılması bu cür transmilli layihələrin gerçəkləşməsində həlledici rol oynayır. Neft hasilatı ilə məşğul olan elə ölkələr var ki, orada tez-tez kataklizmlər, xoşagəlməz hallar özünü göstərir. Şimali Afrika, Yaxın Şərq, Latın Amerikası ölkələrinin bir çoxunda karbohidrogen ehtiyatları rəqabət və qarşıdurma faktoruna çevrilib. Azərbaycan isə öz ehtiyatlarını ölkənin iqtisadi gücünün artmasına, beynəlxalq nüfuzunun yüksəlməsinə, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına sərf edir. Məhz bu səbəbdən də istər regional, istərsə də beynəlxalq müstəvidə bir çoxlarına əlçatmaz olan nailiyyətlər qazanılır. Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində Cənub Qaz Dəhlizinin perspektivləri ilə bağlı jurnalistin sualına cavab verərkən demişdir ki, bizim təbii qazın qiyməti digər mənbələrdən daxil olan qazdan ucuzdur. Bu qaz yeni mənbədən gəlir. Cənub Qaz Dəhlizinin vacibliyi nəinki əlavə qaz həcmləri, o cümlədən alternativ mənbə olması ilə izah edilir. O, sözünə davam edərək demişdir: **"Azərbaycanda qazın təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetrdir. Belə həcm öz istehlakımız və ixrac üçün ən azı 100 ilə kifayət edər. Hazırda yeni yataqların kəşf edilməsi mərhələsindəyik. Azərbaycanın neft və qaz sektoruna böyük enerji şirkətləri arasında maraq artır".**

Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycanın iştirakı ilə reallaşan yeni transmilli layihələr enerji bazarında öz layiqli yerini tutacaq. Çünki Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinə böyük töhfə vermək üçün güclü potensiala malikdir. Avropanın enerji doktrinasında kömürlə atom enerjisinin payının azaldılması məsələsi mühüm yer tutur. Bərpa olunan enerjinin və qazın payı isə artan dinamika üzrə inkişaf edəcəkdir.

Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan "Əsrin müqaviləsi"nin həyata keçirilməsi Azərbaycanın sonrakı bütün uğurlarına vəsilə oldu. Qısa zaman kəsiyində ölkədə sıçrayışlı iqtisadi inkişaf baş verdi və bunun nəticəsində cəmi 17 il ərzində Azərbaycanın hər bir guşəsi çiçəkləndi, gözəlləşdi, müasirləşdi. Neft kapitalının insan kapitalına keçidi baş verdi, ölkədə azad rəqabətə söykənən iqtisadi sistem bərqərar oldu. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə də bu amillərdən qaynaqlanır. Elə bir qələbə ki, Azərbaycanı əbədi yüksəlişə və inkişafa doğru aparacaq!

Zülfü İLYASOV,
"İqtisadiyyat" qəzetinin
xüsusi müxbiri

PAŞA Bank 2021-ci il üçün yarımillik maliyyə nəticələrini açıqlayıb

Ölkənin aparıcı korporativ bankı PAŞA Bank oktyabr ayının 13-ü keçirilən mətbuat konfransında 2021-ci ilin ilk yarımilliyə dair fəaliyyətinin yekunlarını açıqlayıb. Tədbirdə məruzəçi qismində Bankın İdarə Heyətinin üzvü, Baş maliyyə inzibatçısı Bəhruz Nağıyev çıxış edib.

PAŞA Bank 547,940 min manat dəyərində olan ümumi kapital həcmi ilə ölkənin ən böyük kommersiya bankı mövqeyini qoruyub saxlayır (2020: 559,092 min manat). Yarımil sonuna etibarən PAŞA Bankın cəmi aktivləri 5,920,485 min manat təşkil edib. Bu göstərici ötən ilin analoji dövrü ilə müqayisədə 7% artıb (2020: 5,516,391 min manat). 30 iyun 2021-ci il tarixinə Bankın aktivlərinin açıqlaması aşağıdakı kimidir:

- Pul vəsaitləri və pul vəsaitlərinin; ekvivalentləri - 19%;
- Müştərilərə verilmiş kreditlər - 37%;
- Kredit Təşkilatlarına verilmiş kreditlər - 8%;
- Qiymətli kağızlar portfeli - 32%;
- Digər cari və uzunmüddətli aktivlər - 4%.

PAŞA Bank 2021-ci ildə ümumi kredit portfelini 4% artıraraq 2,259,340 min manata (2020: 2,163,415 min manat) çatdırıb və kreditləşmədə ciddi artım əldə edib. Portfel üzrə effektiv ehtiyat dərəcəsi 3,92% (2020: 2,55%) təşkil edib. Qeyd olunan dövr ərzində davamlı şəkildə müştərilərə xidmət göstərən Bank son illər ərzində inkişaf etdirdiyi biznes əlaqələrindən də bəhrələnir. Bunun nəticəsi olaraq, PAŞA Bankın müştəri depozit bazası 2021-ci ildə 4,506,393 min manata (2020: 3,966,289 min AZN) çatıb.

Müştəri depozitləri tələbli və müddətli hesablara müvafiq olaraq 67% və 33 % nisbətində cəmlənib (2020: 67% və 33%). Bank 2021-ci maliyyə yarımilliyində 33,280 min manat xalis gəlir (2020 yarımillik: 27,355 min manat) qazandığını elan edib. Eyni dövr üçün toplam əməliyyat gəlirləri 128,446 min manat təşkil edib ki, bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə 16% çoxdur (2020 yarımillik: 111,114 min manat). Bankın yarımillik faiz gəlirləri 127,501 min manat, qeyri-faiz gəlirləri 27,854 min manat təşkil etmişdir. Nəticədə qeyri-faiz gəlirinin ümumi əməliyyat gəlirlərinə nisbəti 22% təşkil edib.

Beynəlxalq maliyyə institutları ilə əhatəli danışıqlar sayəsində geniş miqyaslı maliyyə alətlərindən istifadə imkanı əldə edən PAŞA Bank korporativ müştərilərinə daha çox ticari maliyyə xidmətləri göstərməyə nail olub. Bank, həmçinin "Standard & Poor's" Qlobal Reytinq agentliyi tərəfindən kredit reytinqi aldıqdan sonra müştərilərin maliyyələşdirilməsi üçün daha yaxşı şərtlər əldə edib. Bank mütəşəkkil səviyyədə müştərilərlə münasibətdə məhsuldarlığı artıraraq peşəkar xidmətlər göstərmək üçün müxtəlif seminarlar və təlimlər keçirib.

2021-ci ildə sənədləşmə əməliyyatları balansı (maliyyələşdirmə sonrası daxil olmaqla) 326,996 min manat (2020: 274,918 min manat) təşkil edib. PAŞA Bank 2021-ci ilin ilk 6 ayında sərmayə yetərlilik nisbətinin ARMB-nin kapital qoyuluşları üzrə tələbinə uyğun olaraq 13,9% təşkil etdiyini açıqlayıb (2020: 15.5%). Bank "Basel II" və "Basel III" dövrünü bitirdikdən sonra kapitalını dividendlər vasitəsilə səhmdarlara qaytararkən tələb olunan kapital səviyyələrinə diqqət yetirməyə davam edir.

Bakcell Qarabağ Dirçəliş Fondunun "Qızıl" İanə sertifikatı ilə təltif edilib

Bakcell şirkəti Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, regionun dayanıqlı iqtisadi inkişafı və rifahına, eyni zamanda ekoloji tarazlığının bərpa olunması istiqamətində aparılan işlərə dəstək verdiyi üçün Qarabağ Dirçəliş Fondu tərəfindən "Qızıl" İanə sertifikatı ilə təltif olunub. "Qızıl" İanə Sertifikatı Fondun İdarə Heyətinin sədri Rəhman Hacıyev tərəfindən "Bakcell"in baş icraçı direktoru Rainer Rathgeberə təqdim edilib. Qeyd edək ki, Bakcell şirkəti Qarabağ Dirçəliş Fonduna 1,4 milyon manat məbləğində vəsait köçürüb. Bakcell şirkətinin də daxil olduğu "NEQSOL Holding"in tərkibində olan şirkətlər tərəfindən bu fonda ümumilikdə ianə edilmiş məbləğ 2 milyon AZN təşkil edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Bakcell, eyni zamanda işğaldan azad olunmuş ərazilərdə mobil rabitə şəbəkəsinin qurulmasını həyata keçirməklə Qarabağda bərpa işlərinə öz töhfəsini verir. Şirkətin baza stansiyaları artıq Şuşada və Cıdır düzündə, Cəbrayıl rayonunda, Hadrut qəsəbəsi də daxil olmaqla Xocavənddə quraşdırılıb. Bakcell Qarabağda şəbəkənin əhatə dairəsinin genişləndirilməsi və yüksək keyfiyyətli xidmətlərin təmin edilməsinə yönəlmiş genişmiqyaslı işlər aparır.

Bakcell özünün Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində müxtəlif sosial layihə və təşəbbüslərinin həyata keçirilməsini davam etdirəcək.

Azercell Tokio-2020-nin qaliblərini təbrik etdi

Şirkət beynəlxalq olimpiadada öz qələbəsilə Azərbaycan bayrağını zirvələrdə dalğalandıran olimpiya və paralimpiya medalçılarını dəyərli hədiyyələrlə mükafatlandırdı. Tokio-2020 Yay Oyunlarında Azərbaycan Milli Olimpiya və Milli Paralimpiya Komandalarının Məğrur Tərəfdaşı kimi çıxış edən Azercell ölkəmiz üçün böyük uğurla nəticələnən bu əhəmiyyətli yarışın medalçılarını bir araya toplayaraq təbrik etdi.

Oktyabr ayının 12-də Azercell şirkətinin prezidenti Zərinə Zeynalova, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov və Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyevin iştirakı ilə keçirilən görüşə Tokio-2020 Olimpiya və Paralimpiya Oyunlarının mükafatçısı olan idmançılar da qatıldı. Tədbirdə qonaqları salamlayan Azercell şirkətinin prezidenti Z.Zeynalova öz çıxışında bildirdi ki, 23 olimpiyaçı və paralimpiyaçılarımızın müxtəlif idman növlərində toplam olaraq 26 medal qazanması ölkəmiz üçün böyük bir fəxrdir: "Yarışlara qatılan və mükafat alan bütün idmançılarımız, xüsusilə də bu il rekord sayda qızıl medal qazanaraq Azərbaycanın adını 10 lider ölkə sırasına daxil edən paralimpiyaçılarımızla qürur duyur, onları ürəkdən təbrik edir və müvəffəqiyyətlər arzulayıram! Tokio-2020 çərçivəsində Azercell-i Məğrur Tərəfdaş kimi dəvət edən Azərbaycan Milli Olimpiya Komitəsinə və Milli Paralimpiya Komitəsinə əməkdaşlığa görə təşəkkür edirəm!"

Tədbirdə, həmçinin Azərbaycanın Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov da söz alaraq ölkəmizdə olimpiya və paralimpiya hərəkatlarına olan dəstəyə görə təşəkkürünü bildiriblər. Tədbirdə bütün qalib idmançılara "Azercell Telekom" adından sertifikatlar və dəyərli hədiyyələr təqdim olunub.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500